

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 avqust 2021-ci il №62 (2570) https://mod.gov.az Qiyməti 30 qəpik


## “Vətəni qorumaq amalımızdır”



*Güclü ordu dövlətin də, xalqın da təhlükəsizliyini etibarlı şəkildə qoruyur. Düşmən üzərində parlaq qələbə qazandıqdan sonra da Azərbaycan Ordusu döyüş qabiliyyətini daim artırır.*

Vətən müharibəsində qazanılan təcrübə təsdiqlədi ki, artilleriyanın döyüşdə mühüm yeri var. Döyüşlərdə artilleriyaçılarımız düşmənə dəqiq zərbələr endirərək onun canlı qüvvə və döyüş texnikasını məhv etdilər.

"N" hərbi hissəsində bölmə döyüş hazırlığı məşğələsi ilə məşğul olurdu. Artilleriyaçılar dərs cədvəlinə uyğun olaraq müxtəlif döyüş tapşırıqlarını məşq edirdilər. Təlim meydanında canlanma var idi. Təlimlərlə döyüş hazırlığını artıran topçularımız müəyyən olunmuş müxtəlif döyüş tapşırıqlarını məşq edir, təcrübə və səriştələrini artırırlar. Şəxsi heyətə təlim keçən top komandiri kiçik çavuş Nəcməddin Baxşıyev bildirdi ki, hazırda batareya müdafiədə tapşırıqlarını icra edir. Şəxsi heyət topun “döyüş” və “səfər” vəziyyətinə gətirilməsi, hədəflərə tuşlama normativlərini yerinə yetirir. "Ordumuzda aparılan islahatlar nəticəsində hərbi təlim, döyüş hazırlığı özünün bütün parametrləri ilə daha çox əhəmiyyət daşımaqla xüsusi diqqət mərkəzində dayanır. Döyüşdə hazırlıqlı hərbi qulluqçu döyüş əmrini daha operativ, daha məsuliyyətli yerinə yetirir. Əsgərlərin istər fiziki, istərsə də mənəvi hazırlığında döyüş hazırlığı dərsləri xüsusi rol oynayır".

**(Ardı 3-cü səhifədə)**



Zabit atanın şəhid oğlunun doğum günü qeyd edilib

**4-cü səhifədə**



Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib

**5-ci səhifədə**



“Azərbaycan yanındadır, Türkiyəm!”

**7-ci səhifədə**



Böyük Xalqın Şanlı Zəfərində ölkəsini sevən hər kəsin payı var

**8-ci səhifədə**

# Müdafiə Nazirliyinin rəhbər heyəti işğaldan azad olunmuş bölgələrə səfər edib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun şəxsi heyətinin sağlamlığının qorunması istiqamətində məqsədyönlü tədbirlər davam etdirilir.

Hərbi hissələrdə müasir standartlara cavab verən tibbi infrastrukturun yaradılması istiqamətində müvafiq fəaliyyətlər həyata keçirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Kəlbəcər rayonu ərazisində əsaslı təmir edilmiş hərbi hospitala baxış keçirib.

Əraziyə baxış zamanı Müdafiə nazirinə məruzə edilib ki, müasir tibbi avadanlıqlarla təchiz olunan hospitalda hərbi qulluqçuların müalicəsi üçün hər cür şərait yaradılıb. Qeyd olunub ki, hərbi hospitalda cərrahi-əməliyyat bloku, qəbul-diaqnostika, terapiya, cərrahiyyə, infeksion xəstəliklər, tibbi-təchizat, laboratoriya, anesteziologiya və intensiv terapiya bölmələri, həmçinin yeməkxana zalı, rentgen və stomatoloji kabinetlər mövcuddur.



Sonra nazir Laçın rayonu ərazisində yerləşən müasir avadanlıqlarla təchiz edilmiş hərbi tibb məntəqəsinə gələrək burada yaradılan şəraitlə tanış olub.

Sonda Müdafiə naziri tibb xidmətinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq göstərişlər verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad olunmuş bölgələrə Müdafiə Nazirliyinin rəhbər heyətinin səfəri



davam edir.

Nazirliyin rəhbərliyi Kəlbəcər rayonu ərazisində tikilməkdə olan çörək sexinə baxış keçirib və aparılan tikinti işləri ilə maraqlanıb, inşaatın daha da keyfiyyətli aparılması üçün müvafiq tapşırıqlar verilib.

Sonra Müdafiə naziri Laçın rayonu ərazisində yerləşən çörək zavodunda olub.

Nazirə məruzə edilib ki, ərazidə dislokasiya olunan bütün hərbi hissələrin şəxsi heyətinin gündəlik isti çörək təminatı bu zavod tərəfindən həyata keçirilir.

Bildirilib ki, müasir avadanlıqlarla təchiz olunmuş çörək zavodunun fəaliyyəti tam avtomatlaşdırılıb. Bütün un məmulatları əl dəyilmədən və gigiyenik qaydalara əməl olunmaqla bişirilir.

Sonda Müdafiə naziri şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, işğaldan azad edilmiş ərazilərimizdə dislokasiya olunan hərbi hissələrin şəxsi heyətinin təchizat, təminat və sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq obyektlərin tikintisi davam etdirilir.

Müdafiə Nazirliyinin rəhbərliyi Kəlbəcər və Laçın rayonları ərazisində yeni inşa edilmiş və əsaslı təmirdən çıxmış anbarlara baxış keçirib.

Əvvəlcə Müdafiə nazirinə buradakı inzibati və texniki ərazilərdə mövcud tikililər və inkişaf planı haqqında məlumat verilib.

Bildirilib ki, quru ərzaq məhsullarının və əşya əmlakının saxlanılması üçün tələb olunan qurğu və sistemlərlə təchiz edilmiş bir neçə anbar istifadəyə verilib.

Bundan başqa Müdafiə nazirinə işğaldan azad edilmiş ərazilərimizdə ərzaq və əşya əmlakı anbarlarının tikintisinin davam etdirilməsi barədə məruzə edilib.

Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyətinin ilboyu təzə və yüksək kalorili qida ilə təmin olunması, hərbi hissələrin ərzaq təminatına nəzarətin gücləndirilməsi, ərzaq məhsullarının daha keyfiyyətli saxlanılması və hərbi qulluqçuların sosial-məişət şəraitinin daima yaxşılaşdırılması, eləcə də qışa hazırlıq işinin vaxtında yekunlaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin rəhbərliyi Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən



əsaslı təmir olunmuş hərbi hissələrə baxış keçirib.

Əvvəlcə tank bölmələrinin döyüş hazırlığının səviyyəsini yoxlayan Müdafiə naziri burada hərbi qulluqçular üçün yaradılan şəraitlə maraqlanıb.

Məruzə olunub ki, hərbi hissədə şəxsi heyətin xidməti üçün bütün lazımi şərait yaradılıb.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi qeyd olunan ərazilərdə dislokasiya olunan digər hərbi hissələri ziyarət edib.

Bildirilib ki, hərbi hissələr müasir avadanlıq, mebel və inventarlarla təchiz edilib. Şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə silah otaqları, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqələri, ərzaq və əşya anbarları, hamam-sanitar qovşaqları istifadəyə verilib. Ərazilərin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb.

Müdafiə naziri şəxsi heyətlə görüşərək Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan zəfərin tarixi əhəmiyyətini bir daha hərbi qulluqçuların diqqətinə çatdırıb, onlara xidmətlərində uğurlar arzulayıb.

Sonda Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə müvafiq tapşırıqlar verib.

* * *

Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığının icrası ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Kəlbəcər və Laçın rayonlarında tikintisi davam edən bir neçə hərbi hissədə olublar.

Tikinti işlərinin gedişatını yoxlayan Müdafiə naziri inşaatın keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri "Dəniz Kuboku" müsabiqəsində iştirak edəcək komandamızın hazırlığını yoxlayıb







*Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsində iştirak edəcək komandamızın hazırlığını yoxlamaq üçün Hərbi Dəniz Qüvvələrində olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış abidəsi önünə gül dəstələri qoyulub və ehtiram ifadə edilib.

Müdafiə naziri müsabiqədə iştirak edəcək heyətin təminat və təchizatı, eləcə də ölkəmizi təmsil edəcək gəmilərin və şəxsi heyətin hazırlıq səviyyəsini yoxlayıb.

Məruzə edilib ki, avqustun 22-dən İran İslam Respublikasının Ənzəli şəhərində keçiriləcək müsabiqəyə hərbi dənizçilərimizin 66 nəfərlik heyətlə G-122 və G-124 gözətçi gəmilərində qatılması planlaşdırılır.

Nazir hər zaman müsabiqədə yüksək nəticələr əldə edən hərbi dənizçilərimizə uğurlar arzulayıb və ölkəmizi layiqincə təmsil etmələri üçün onlara müvafiq tapşırıqlar verib.

Sonra Müdafiə nazirinə əsaslı təmirdən çıxmış G-121 gözətçi gəmisi təqdim olunub. Qeyd edilib ki, bu gəmi dənizdə düşmən hədəflərinin məhv edilməsi, neft-qaz boru kəmərlərinin mühafizəsi və enerji infrastrukturunun diversiya qruplarından qorunması tapşırıqlarını müvəffəqiyyətlə icra etmə qabiliyyətinə malikdir.

G-121 gözətçi gəmisinə baxış zamanı görülən işləri yüksək qiymətləndirən nazir HDQ hərbi qulluqçularının peşəkarlıq səviyyəsinin daha da artırılması istiqamətində müvafiq tapşırıqlar verib.

Sonda HDQ-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**7 avqust 2021 12:51**

Avqustun 6-sı saat 19:05, 23:30 və 23:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən, Basarkeçər rayonunun Yuxarı Zağalı və Zərkənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad, Kəlbəcər rayonunun İstisu və Yuxarı Ayrım yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**7 avqust 2021 17:50**

Avqustun 7-si saat 14:20-dən etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Arazdəyən-Sədərək istiqamətində mövqelərimizi müxtəlif çaplı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Cavab atəşi ilə qarşı tərəf susdurulub.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**8 avqust 2021 13:56**

Avqustun 8-i saat 13:00-da Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**9 avqust 2021 10:31**

Avqustun 9-u saat 00:10-dan 00:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Qarşı tərəf cavab atəşi ilə susdurulub.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**9 avqust 2021 22:55**

Avqustun 9-u saat 17:10-dan 17:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Qarşı tərəf cavab atəşi ilə susdurulub.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# "Vətəni qorumaq amalımızdır"



(Əvvəli 1-ci səhifədə)

Heyət nəfəri əsgər Nurlan Məmmədov qeyd etdi ki, döyüşün növündən asılı olmayaraq düşmənə atəşlə zərərvurmanın əsas atəş tapşırıqları raket və artilleriya qoşunlarının üzərinə düşür. "Müharibə zamanı düşmənin döyüş potensialının zəifləldilməsi məqsədilə müxtəlif növ artilleriya silahlarından onun qoşunlarına və obyektlərinə təyin olunmuş qaydada atəş aparılır. Burada əsas məqsəd döyüşün gedişində üstünlüyə nail olmaq və piyadaların hərəkətinə şərait yaratmaqdır. Vətən müharibəsi bir daha sübut etdi ki, artilleriyanın döyüşdə əhəmiyyəti əvəzedilməzdir".

Əsgər Amil Qurbanlı vurğuladı ki, ordu quruculuğunda silah və texnika ilə yanaşı, şəxsi heyət amili və onun mənəvi-psixoloji durumu da əhəmiyyətlidir. Azərbaycan Ordusu Vətənini sevən, komandirlərinin sayəsində fiziki cəhətdən güclü, sağlam, mənən zəngin, yüksək döyüş qabiliyyətli şəxsi heyətə malikdir.

"Şəxsi heyət Mübariz İbrahimov, Fərid Əhmədov, Cəbrayıl Dövlətzadə, Xudayar Yusifzadə, Çingiz Qurbanov, Rauf Orucov... kimi oğullarımızın qəhrəmanlığından mənəvi güc alaraq torpaqların keşiyində dayanır", - deyə əsgər Məğrur Kərimov əsgər yoldaşının fikrinin davamı olaraq bildirdi. - Onlar Azərbaycan əsgərinin mərdlik, cəsarət, qorxmazlıq, igidlik simvoluna çevriliblər. Bunun bir səbəbi Vətən sevgisidir, digər səbəb vətənpərvərlik örnəyidir. Torpaqlarımızın işğaldan azad edilməsi üçün canlarından keçən şəhidlərimizin hünəri bizlərə örnəkdir. Hər birimiz onların keçdiyi həyat və döyüş yolundan çox şey öyrənirik. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda şəhid olanlar heç zaman unudulmayacaqlar.

"Vətən sevgisi, Vətənə məhəbbət insanın daxilindən, qanından, genindən gəlir", - deyə əsgər Faiq Quliyev dostunun sözünü təsdiqlədi. - Vətən sevgisi ana sevgisi qədər müqəddəsdir. İnsan qəlbinin ən böyük nəğməsi Vətən nəğməsidir. Əsgərlərimiz öz Vətənini qəlbi ilə, canı və qanı ilə sevir.

Tarixin ayrı-ayrı dönəmlərində ölkəmiz həmişə yadellilərin hücumlarına məruz qalıb. Lakin babalarımız torpaqların müdafiəsini hər şeydən üstün bilib. Bu, bu gün də belədir. Vətən müharibəsində neçə-neçə igid oğullarımız şəhid oldu. Torpaqlarımızı göz bəbəyi kimi qorumaq ən ali və müqəddəs vəzifəmizdir. Çünki min illərdir üzərində yaşadığımız bu torpaqları gələcəyə aparmaq lazımdır. Heç bir halda Vətənin müdafiəsindən geri çəkilməyəcəyik, ən çətin anlarda belə bayrağımızı yüksəkliklərə qaldıracağıq, ölkəmizin adının ən yaxşılar sırasında çəkilməsi naminə ən ağır şəraitlərdə belə çalışmaqdan geri durmayacağıq. Bəli, Azərbaycan gəncləri, hərbi qulluqçular, bu sıradan əsgərlər Azərbaycanı bütün varlığıyla qoruyur.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Zabit atanın şəhid oğlunun doğum günü qeyd edilib





***Ehtiyatda olan mayor Vaqif Məhəmməd oğlu Şəbiyev əslən Qərbi Azərbaycandandır. Onun valideynləri 1948-ci ildə doğma yurdlarından məcburi çıxarılaraq Azərbaycana köçürülüblər. Vaqif Saatlı rayonunda dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra Ukrayna Respublikasına gedərək Kiyev Ali Hərbi Aviasiya Məktəbinə daxil olub. Oranı müvəffəqiyyətlə başa vurduqdan sonra Rusiyanın müxtəlif şəhərlərində sovet ordusu sıralarında qırıcı təyyarələr mütəxəssisi kimi xidmətini davam etdirib.***

1990-cı ildə Bakıda törədilən Qanlı Yanvar qırğınlarından xəbərdar olan gənc zabit böyük çətinliklərlə bir müddət sonra doğma Vətənə qayıdıb və könüllü olaraq Qarabağın müdafiəsinə yollanıb. Vaqif Şəbiyevin döyüş yolu Şuşa, Laçın, Tərtər, Ağdərə, Goranboy bölgələrindən keçib. Minaatan, o cümlədən tank əleyhinə batareyanın komandiri kimi qarşıya qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirib, göstərilən etimadı Vətənə sədaqətli xidmətləri, şəxsi igidlik nümunələri ilə doğruldub.

1997-ci ildən başlayaraq Hərbi Hava Qüvvələrində taborun qərargah rəisi, tabor komandiri vəzifələrində xidmətini davam etdirib və 2016-cı ildə Silahlı Qüvvələrdən ehtiyata buraxılıb.

V.Şəbiyev Birinci Qarabağ müharibəsində göstərdiyi şücaətə, xidmətdə qazandığı uğurlara görə 10 döyüş medalı ilə təltif olunub.

Veteran zabitin atasının adını daşıyan oğlu Məhəmməd də onun yolu ilə gedərək Vətənə xidmət yolunu seçib və zabitlik peşəsinə yiyələnib.

Sabunçu rayonu İkinci Zabrat qəsəbəsində şəhid leytenant Məhəmməd Şəbiyevin doğum günü münasibətilə xatirə bulağının açılışına həsr olunan tədbirdə bu barədə Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani ətraflı söhbət açıb.

Müdafiə Nazirliyi rəsmilərinin, Sabunçu rayon İcra Hakimiyyəti rəhbərliyinin, şəhidin ailə üzvlərinin, döyüşçü yoldaşlarının və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası, eləcə də işğal altında olan tarixi torpaqlarımızın azad edilməsi uğrunda şəhidlik zirəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Polkovnik A.Qurbani Vətən müharibəsinin tarixi əhəmiyyətindən, bu müharibədə xalqımızın və ordumuzun birliyindən, həmrəyliyindən, təcavüzkar Ermənistanın məğlubiyyətə düçar edilməsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin müstəsna sərkərdəlik məharətindən, Azərbaycan Ordusunun Zəfər yürüşündən, əsgər və zabitlərimizin öz qanları, canları ilə əfsanəvi qəhrəmanlıqları ilə hərb tariximizə şanlı səhifələr yazdıqlarından, həmçinin müqəddəs bayrağımızın bu gün də etibarlı əllərdə, dəmir yumruğun isə yerində olduğundan iftixar hissi ilə danışıb.



Şəhid zabitin hər bir gənc üçün örnək olan qısa, lakin mənalı ömür və döyüş yolu haqqında ətraflı məlumat verilib. Nəzərə çatdırılıb ki, leytenant Məhəmməd Şəbiyev 1998-ci il avqustun 6-da Bakı şəhərində hərbçi ailəsində doğulub. Uşaqlıqdan ata nənəsi Mehriban ananın himayəsində böyüyüb. Məhz Mehriban ananın təkidi ilə yeniyetmə Məhəmməd Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olaraq 13-14 yaşlarından əsgər çəkməsi geyib. 2016-cı ildə xalqımızın haqlı olaraq "Heydər Əliyev Məktəbi" adlandırdığı bu hərbi təhsil ocağını bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb və 2020-ci ildə Quru Qoşunları fakültəsini bitirib.

Gənc leytenant cəbhə bölgəsindəki hərbi hissələrdən birində motoatıcı taqım komandiri kimi ilk gündən vəzifəsinin öhdəsindən layiqincə gəlib, komandanlığın rəğbətini qazanıb, göstərilən etimadı nümunəvi xidməti ilə doğrultmağa çalışıb.



Vətən müharibəsinin başladığı ilk gündən komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlarda fəal iştirak edib, şəxsi mərdlik və igidlik nümunələri göstərib.

Oktyabrın 4-də taqım komandiri leytenant M.Şəbiyev döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Bakı Dövlət Universitetinin professoru Tahir İbrahimov Şəbiyevlər ailəsinin qəsəbədə böyük hörmət sahibi olduqlarından və vətənpərvərliklərindən danışıb. Vaqif Şəbiyevin oğlunun ata yolunu seçməsinin və Vətən müharibəsində şəhadətə yüksəlməsinin heç də təsadüfi olmadığını qeyd edib. Əmin olduğunu bildirib ki, qəsəbə gəncləri bundan sonra da şəhid zabit Məhəmmədin və onun döyüşçü dostları Rəşadın, Əfqanın, Salehin və başqalarının davamçıları kimi Vətənin hər bir çağırışına hər an hazır olacaqlar.

Rayon ağsaqqalları adından çıxış edən Sərxan Gəncəliyev Müzəffər sərkərdə, Ali Baş Komandan cənab İlham Əliyevə və Azərbaycan Ordusunun igid döyüşçülərinə minnətdarlığını bildirib. O deyib: "Mən Allahıma şükür edirəm ki, Azərbaycanımın Zəfər gününü gördüm. Bu qələbə hər birimizin qələbəsidir. Hələ də Azadlıq Meydanında keçirilən möhtəşəm hərbi paradın qürurunu yaşayıram. Qardaş Türkiyənin və Azərbaycanın prezidentləri fəxri kürsüdə yanaşı dayanaraq parad iştirakçılarını salamlayırdılar. 1918-ci ildə olduğu kimi, Türkiyədən xilaskarlıq missiyası ilə gələn qəhrəman türk əsgəri Azərbaycanın qalib oğulları ilə bir yerdə daha böyük qələbələrə, uğurlara doğru inamla irəliləyirdi. Bu gün Türkiyənin bir çox bölgələrində yanğınlar davam edir. Elə buradan qardaş Türkiyənin yanında olduğumuzu bəyan edirəm".

El ağsaqqalı Sərxan Gəncəliyev və şəhid atası ehtiyatda olan mayor Vaqif Şəbiyev şəhidlərin unudulmadığına, onların adlarının əbədiləşdirildiyinə, şəhidlərin şərəfinə xatirə parklarının, xatirə bulaqlarının inşa edildiyinə, şəhid ailələrinin daim diqqətdə saxlanıldığına görə dövlətimizin başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ediblər.

Şəhid ailələrinə Müdafiə Nazirliyinin nəşri olan A.Qurbaninin "Vətən müharibəsi şəhidləri" kitabı təqdim olunub.

Şəhidin balaca qardaşları Murad və Malikin söylədikləri "Qardaşım şəhiddir mənim" və "Biz ölsək də, yaşasın Ana Vətən əbədi!" adlı şeirlər tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

"Qələbə marşı"nın sədaları altında "Şəhid Məhəmmədin Xatirə bulağı"nın üzərindən bəyaz örtük götürülüb, Şuşadan gətirilən bulaq suyu bu bulağın suyuna qarışdırılaraq tədbir iştirakçılarının ürəyinə sərinlik gətirib.

Şəhid bulağının qarşısına Müdafiə Nazirliyinin adından dağ çiçəklərindən hazırlanmış çələng qoyulub.

Şəhidin nənəsi Mehriban ana "Axar bulaqlarımız qurumasın!, Çinar ağaclarımız kəsilməsin!, Çapaçapda bədöy atlarımız büdrəməsin!, Allah Sərkərdəmizi və Ordumuzu qorusun!, Şəhidlərimizin ruhu şad, birliyimiz əbədi olsun!" deyərək Dədə Qorqudsayağı alqışlar edib və xatirə bulağının ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib.

Sonra şəhidin doğum günü münasibətilə tort kəsilib, İkinci Şəhidlər xiyabanı ziyarət edilərək məzarı qarşısına çələng və gül dəstələri qoyulub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib



Azərbaycan Ordusunun hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, COVID-19 virusunun yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi qaydalarının tələbləri nəzərə alınaraq andiçmə mərasimində əsgər yaxınları ilə şəxsi heyətin görüşləri təşkil edilməyib. Andiçmə mərasimləri Kütləvi İnformasiya Vasitələri tərəfindən işıqlandırılıb, hərbi qulluqçulardan müsahibələr alınıb və ilk dəfə olaraq gənc əsgərlərin ailələri ilə (onlayn formatda) videogörüntülü əlaqə qurması üçün şərait yaradılıb. Andiçmə mərasimi bütün hərbi hissələrdə hərbi rituallara uyğun və xüsusi karantin rejimi qaydalarının tələbləri nəzərə alınaraq keçirilib.

Tədbirlərdə ümummilli lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

* * *

Naxçıvan Qarnizonu Qoşunlarında andiçmə mərasimləri keçirildi. Əlahiddə Ümumqoşun Orduda, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında keçirilən mərasimlərdə gənc əsgərlər Vətənə sədaqət andı içdilər.

Gənc əsgərlər Azərbaycan Respublikasının mənafeyini, ərazi bütövlüyünü və müstəqilliyini canları bahasına qoruyacaqlarına and içdilər.

Tədbirdə Hərbi andın mahiyyətindən danışan polkovnik Mübariz Rzayev şəxsi heyətə xidmətlərində uğurlar arzuladı.

Gənc əsgərlərdən Emil Rəhimov Hərbi andın və nizamnamələrin tələblərinə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl edərək hərbi sirri qoruyacaqlarına, silah və döyüş texnikasını mükəmməl mənimsəyib həmişə saz, təmiz və döyüşə hazır vəziyyətdə saxlayacaqlarına söz verdi.

Polkovnik Mehman Gülməmmədov Naxçıvan Qarnizonunun rəisi general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıraraq bildirdi ki, hər bir əsgər xidmət etdiyi hərbi hissədə döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün öz vəzifə borcunu şüurlu surətdə dərk etməli və xidməti vəzifələrini vicdanla yerinə yetirməlidir. Bu gün təntənəli surətdə Vətənə sədaqət andı içərək ordu sıralarına tam hüquqlu həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi daxil olan gənclərimiz bilməlidirlər ki, Hərbi anda sadiq olan əsgər döyüş və xidməti fəaliyyətində son damla qanına qədər vəzifə borcunu şərəflə yerinə yetirir, düşmən üzərində qələbəyə sarsılmaz inamı ilə döyüş qabiliyyətini və ustalığını daha da artırır.

Andiçmə mərasimi şəxsi heyətin təntənəli keçidi ilə başa çatdı.

* * *

"N" hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Dünyanı cənginə almış COVİD-19 pandemiyasının şərtləri nəzərə alınmaqla keçirilən tədbirdə valideynlərin iştirakı nəzərdə tutulmamışdı.

Öncə hərbi hissənin rəhbər heyəti və fəxri qonaqlar hərbi şəhərciyin ərazisində ulu öndər Heydər Əliyevin şərəfinə ucaldılan abidəni ziyarət etdilər, abidə önünə gül dəstələri düzdülər.

Zabit Rəşad Salmanov mərasim iştirakçılarını salamladı, Hərbi andı qəbul edən gənc əsgərləri bu mötəbər gün münasibətilə təbrik etdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və birlik komandirinin təbrik məktubu şəxsi heyətin diqqətinə çatdırıldı. "Əziz əsgərlər! Bu gün sizlərin həyatında ən əlamətdar günlərdən biridir. Sizlər Azərbaycan Ordusunun sıralarına daxil olaraq Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağınıza and içdiniz. Hərbi and Azərbaycan Ordusunun hər bir əsgər və zabiti üçün Vətən qarşısında dönməz sədaqət ifadəsidir, pozulmaz qanundur, hətta ölüm təhlükəsi belə Azərbaycan əsgərini içdiyi andı pozmağa məcbur edə bilməz. Ordu quruculuğunun əsas mərhələsi 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı dövrü əhatə edir. Onun Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərqərar edildi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında aparılan məqsədyönlü daxili və xarici siyasət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin bu gün apardığı demokratik, hüquqi dövlət quruculuğu, iqtisadi tərəqqini təmin edən uğurlu daxili və xarici siyasəti nəticəsində biz Vətən müharibəsində qələbə qazandıq. Bütün dünyaya öz gücümüzü bir daha nümayiş etdirdik".

Zabit çıxışını bitirdikdən sonra gənc əsgərlər təyin olunmuş yerlərinə orkestrin müşayiəti ilə nizami addımlarla gələrək, bir əlini şanlı üçrəngli bayrağımızın üzərinə, digərini əsgər yoldaşının belinə qoyaraq Hərbi andı qəbul etdilər.

Şəhid Səbuhi Orucovun anası Narınc Orucova öncə şəhidlərə rəhmət, yaralılara şəfa diləməklə söhbətə başladı. O qeyd etdi ki, məmləkətimiz hər zaman öz igid oğulları ilə tanınıb və cəsurluq ənənələrinin davamı olaraq bugünkü Vətən müdafiəçisi oğullarımız da Vətəni göz bəbəyi kimi qorumağa, onun varlığı üçün canını və qanını əsirgəməyəcəklərinə and içdilər. 44 günlük Vətən müharibəsinin Azərbaycan əsgərinin cəsurluq salnaməsinin göstəricisi olduğunu deyən şəhid anası bildirdi ki, döyüşlər vaxtı Azərbaycan əsgəri əsil Vətən sevgisini, xalqına və Ali Baş Komandana sədaqət nümunəsini dünyaya nümayiş etdirdi.



Gənc əsgər Vüqar Abdullayev əsgər yoldaşlarının adından çıxış edərək hər bir kəsə təşəkkürünü bildirdi. "Bu gün hər bir əsgərin həyatında ən yaddaqalan günlərdən biridir. Biz gənc əsgərlər and içərək Azərbaycan Ordusu sıralarında hərbi xidmətimizə başlayırıq. Vətəni qorumaq hər birimizin övladlıq və vətəndaşlıq borcudur. Bu gündən Azərbaycan əsgəri adını daşımaqla şərəfli yolun yolçusu olaraq, ümdə amala xidmət edəcəyik. Qalib ordunun əsgəri adını daşımaqdan hər birimiz qürur duyuruq. 44 günlük Vətən müharibəsi bizim tariximizin şanlı səhifələrindən biridir. Ali Baş Komandanımızın tarixi qərarı ilə Azərbaycan əsgəri qızıl hərflərlə yeni tarix yazdı, tarixi ədaləti bərpa etdi. Bir zamanlar işğalda olan torpaqlarımızda bu gün üçrəngli bayrağımız dalğalanır. Qürurluyuq ki, bayrağımızı, Vətənimizi qorumaq vəzifəsi bu gün bizə həvalə olunub".



Sonra çıxış üçün söz Vətən müharibəsinin iştirakçısı qazi əsgər Sənan Kərimliyə verildi. "Bu gündən hər biriniz xalqa, dövlətə xidmət edərək Vətən torpağının keşiyində durmaq kimi müqəddəs vəzifəni yerinə yetirmənin andını içirsiniz. Bu münasibətlə hər birinizi təbrik edirəm. Bu müqəddəs vəzifəni xalqı sevərək, xidmətə vətənpərvərlik hissi ilə yanaşaraq, özünü əsil döyüşçü kimi yetişdirərək, cəsur və mərd oğul olaraq yerinə yetirə bilərsiniz. Sizlər də bu gündən Azərbaycan Ordusunun tamhüquqlu əsgəri adını qazandınız. Üzərinizə düşən əsas vəzifə nəyin bahasına olursa-olsun, Vətənimizin ərazi bütövlüyünü qorumaq, şanlı bayrağımızı daim yüksəkdə tutmaq, əsil döyüşçü kimi formalaşmaq və ordumuzun güclənməsində pay sahibi olmaq üçün əlindən gələni əsirgəməməkdir. Sizi bir daha bu mötəbər gün münasibətilə təbrik edir, cansağlığı, hərbi xidmətinizdə müvəffəqiyyətlər arzulayıram".

Elçin Quliyev və Ramilə Bünyatova Hərbi andı qəbul edən əsgərləri bu qürurverici gün münasibətilə təbrik etdi, gələcək xidmətlərində uğurlar arzuladılar. Onlar 44 gün ərzində Azərbaycan Ordusunun yazdığı şanlı tarixdən, bu tarixi qanı və canı ilə yazan oğullarımızdan danışdılar. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyib gənc əsgərlərimizə xidməti müddətində möhkəm cansağlığı və polad iradə arzuladılar.

Tədbir hərbi qulluqçuların tribuna önündən təntənəli keçidindən sonra konsert proqramı ilə davam etdi.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Əvvəllər gənc əsgərlər Hərbi and içəndə Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etmək üçün döyüşəcəklərinə and içirdilər. Zabitlər də, valideynlər də, qonaqlar da bu qətiyyətə inanır, əmin olurdu ki, ordumuz işğalı sonlandıracaq. Onda əsgərlərin döyüş növbətçiliyinin mahiyyəti başqaydı, indi başqadı...

Vətən müharibəsində qazanılan Zəfərdən sonra gənc əsgərlərin Hərbi and içməsində nisbətən fərqli duyğular yaşanır. Hərbi and içən əsgərlərin baxışları deyir ki, sələflərimizin qazandığı Zəfərin qüdrətini biz davam etdirəcəyik.

Hərbi hissənin zabiti Fuad Mirzəyev çıxışında Vətən müharibəsində qazanılan Zəfərdən, qəhrəmanlıqlardan, qəhrəmanlardan danışdı. Qeyd etdi ki, Vətən müharibəsi Ermənistanın işğalına son qoydu, həm də Cənubi Qafqazda bir terror şəbəkəsini dağıtdı. Azərbaycan Ordusunun şəxsi heyəti Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan Zəfəri dövlətçiliyimizin möhkəmləndirilməsində ən etibarlı amil bilir.

Əminəm ki, gənc əsgərlər də nümunəvi xidmət edəcək, zabitlərin, komandirlərin bütün əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirəcəklər.

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Vüqar Allazov çıxışında gənc əsgər hazırlığının ordu quruculuğu prosesində olduqca vacib amillərdən biri olduğunu qeyd edərək fikrini belə tamamladı:

- Gənc əsgər döyüş növbətçiliyi aparmaqla ordunun yerinə yetirdiyi ən həssas vəzifələrdən birinin icraçısı olur. Bunun üçün gənc əsgərin yüksək döyüş hazırlığına malik olması zəruridir.

Mən Hərbi and içən əsgərləri də, onların valideynlərini də, hərbi hissənin zabitlərini də təbrik edirəm.

Bəkir Həsənov Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Vətən müharibəsində onun oğlu da iştirak edib, şəhid olub. O, çıxışında gənc əsgərlərə Vətən sevgisindən, Vətən naminə döyüşlərdə iştirakından, şəhidlikdən danışaraq dedi ki, ömrü Vətən üçün yaşamaq lazımdır.

Kəlbəcər rayon Veteranlar Şurasının sədri Ramiz Əliyev torpaqlarımızın işğaldan azad edilməsindən, qazanılan Zəfərdən söz açaraq dedi ki, sizin məsuliyyətli xidmətiniz bu Zəfərin davamı olacaq...

Gənc əsgərlər adından Sahil Əliyev çıxış etdi:

- Vətən müharibəsi başlayanda biz də döyüşlərə getmək istədik. Ehtiyac olmadığını dedilər. Hər birimiz döyüşlər gedən müddətdə ruhən döyüşənlərimizin sırasındaydıq. Qələbələr qazanıldıqca elə güman edirdik ki, o qələbəni qazananların sırasında biz də olmuşuq. Zəfərdən sonra xidmətə başlayanlar daha məsuliyyətlə xidmət etməlidirlər. Necə deyərlər, onların döyüş yolunu Zəfərdən sonra biz davam etdiririk. Zəfərdən sonra heç bir qara qüvvə Azərbaycanın ərazisinə göz dikməyə cəsarət etməyəcək. Zəfər qazananların layiqli davamçıları olacağıq. Mən əsgər yoldaşlarım adından hərbi hissəmizin rəhbərliyini əmin edirəm ki, hər birimiz nümunəvi xidmət edəcəyik, bütün əmr və göstərişləri məsuliyyətlə yerinə yetirəcəyik...

Andiçmə mərasimi təntənəli keçidlə tamamlandı...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Şəmkir şəhərində “Vətən müharibəsi şəhidləri” adlı kitabın təqdimatı zamanı qürurverici anlar yaşanıb

*Müdafiə Nazirliyinin və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dəstəyi ilə nəfis tərtibatla nəşr olunan "Vətən müharibəsi şəhidləri" çoxcildliyinin birinci kitabı şəhid ailələri, Azərbaycan Ordusunun şəxsi heyəti və xalqımız tərəfindən böyük maraqla qarşılanır. Artıq iki aya yaxındır ki, respublikamızın şəhər və rayonlarında müəllifin iştirakı ilə silsilə tədbirlər keçirilir, ensiklopedik xarakterli xatirə kitabının nüsxələri şəhid ailələrinə, muzey və kitabxanalara hədiyyə edilir. Bakı, Gəncə, Şəki, Biləsuvar, Cəlilabad, İsmayıllı, Astara və digər şəhərlərdə reallaşan tədbirlərdən şəhid ailələri minnətdarlıqla, qürurverici hisslərlə ayrılırlar.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, növbəti tədbir Şəmkir şəhərindəki Heydər Əliyev Mərkəzində təşkil olunub. Müdafiə Nazirliyi rəsmilərinin, Şəmkir rayon İcra Hakimiyyəti rəhbərliyinin, Vətən müharibəsində şəhadətləri ilə tarix yazan, adları Vətən tarixinə qızıl hərflərlə yazılan unudulmaz şəhidlərimizin Şəmkir rayonunda yaşayan ailə üzvlərinin, hərbi qulluqçuların və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Şəmkir rayon İcra Hakimiyyəti başçısının vəzifəsini icra edən, Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev tədbirin mərasimini açaraq deyib: "İki aydan sonra xalqımız və ordumuz ilk dəfə olaraq sentyabrın 27-ni Anım Günü kimi qeyd edəcək. Hələ 2020-ci il dekabrın 2-də Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalayıb və bu Sərəncam bütün dünya azərbaycanlıları tərəfindən böyük minnətdarlıq hissi ilə qarşılanıb.

Sərəncamda qeyd olunur ki, Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütünlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Azərbaycan Ordusunun Zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.



Natiq Prezidentin Sərəncamına əsaslanaraq bir daha tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Elə bu məqsədlə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə ehtiram əlaməti olaraq hər il sentyabrın 27-nin Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsini qərara almışdır. Hazırda respublikamızın bütün regionlarında olduğu kimi, Şəmkir rayonunda da 27 sentyabr - Anım Gününə ciddi hazırlıq işləri görülür.

Sonra F.Vəliyev 28 il öncə Murovdağ uğrunda döyüşlər zamanı yaxından tanıdığı, yaradıcılığına, xidmətlərinə bələd olduğu Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbanini tədbir iştirakçılarına təqdim edərək onun gərgin zəhmətinin bəhrəsi olan "Vətən müharibəsinin şəhidləri" silsiləsindən birinci kitab barədə fikirlərini bildirib: "Vətən müharibəsində hərbi əməliyyatlar zamanı itkin düşən və bu yaxınlarda nəşi azad edilən ərazidən çıxarılaraq böyük izdihamın iştirakı ilə rayonumuzda son mənzilə yola salınan şəhidimizin dəfn mərasimində müəllif bu nəşri mənə təqdim etmişdi. Səkkiz yüz səhifədən ibarət olan kitabı oxudum. Həm kədərləndim, həm də qürur hissi keçirdim. Ona görə kədərləndim ki, bu cür igid oğulları vaxtsız itirmişik. Ona görə qürur hissi keçirdim ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında heç bir şəhidimizin qanı yerdə qalmayıb. Onların intiqamı döyüş meydanında alınıb. Torpaqlarımız azad olunub, ərazi bütövlüyümüz bərpa edilib. Möhtərəm Prezidentimizin də dediyi kimi biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etmişik. Bir də ona görə qürurlandım ki, Vətən müharibəsi şəhidlərinin sıralarında bizim rayondan da onlarla igidimizin adı var. Hər bir şəhid bizim fəxrimiz, qürurumuz, xalqımızın qızıl fondu, onların ailə üzvləri isə ən mötəbər sakinlərimizdir".

Müdafiə Nazirliyinin rəhbərliyinin adından şəhidlərin ailə üzvlərini salamlayan polkovnik A.Qurbani cəbhə xatirələrindən danışıb, kitabda haqqında yazdığı Azərbaycan Ordusunun şəhid zabit və gizirlərinin bir çoxunu əvvəllər tanıdığını, döyüşlər zamanı onlarla görüşdüyünü, göstərdikləri şəxsi igidlik və şücaətləri yaxından izlədiyini bildirib. Oktyabrın 27-də sonuncu dəfə Qubadlı rayonunun Muradxanlı kəndində görüşərək doğma rayonu Laçının kəndlərinin bir-bir azad olunması münasibətilə təbrik edib mükafatlandırdığı yaxın dostu polkovnik-leytenant Rəşad Sadıqovu yada salaraq kövrəlib. Şəhidin anası Fəlakət xanım və qardaşı Səbuhi səhnəyə dəvət edilərək kitabın nüsxəsi təqdim olunub. Onlar doğmaları Rəşadın da unudulmadığına, xatirəsinin əziz tutulmasına görə minnətdarlıq ediblər.

Vətən müharibəsinin ilk günündə Tərtər və Ağdərə rayonları istiqamətində döyüş meydanına atılaraq xidməti vəzifəsinin öhdəsindən layiqincə gələn və bir gün sonra hərbi əməliyyatlar zamanı şəxsi igidlik nümunələri göstərərək şəhid olan gizir Cavid Məmmədov və oktyabrın 1-də Murovdağ zirvələrinin azad olunması uğrunda gərgin döyüşlər zamanı şəhadətə yetişən onun qardaşı, gizir Çingiz Məmmədovun anası səhnəyə qalxanda tədbir iştirakçıları göz yaşlarını gizlədə bilməyiblər. Şəhid anası isə başını dik tutaraq: "Biz 1988-ci ildə Dərələyəz mahalının Ələyəz kəndindən, doğma yurd-yuvamızdan məcburi qaçqın düşmüşük. O vaxtlar Azərbaycan bizə qucaq açdı. Övladlarım da burada doğulub, Azərbaycanın duz-çörəyi ilə böyüdülər. Azərbaycan uğrunda da şəhid oldular. Ağırdır, çətindir, mənim hər iki qanadım sınıb. Ancaq təsəllim bircə ondadır ki, balalarımın qanları yerdə qalmadı. İnanıram ki, biz hazırda düşmən əsarətində olan Zəngəzura, Göyçəyə, Vediyə, elə bizim allı-güllü Dərələyəz mahalına da qayıdacağıq. Bu kitabı isə şəhid oğullarımın xatirə guşəsinə qoyacaq, onları hər gün öpüb-oxşayacağam. Vətən sağ olsun!", - deyib.

Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və bir neçə döyüş medalı ilə təltif olunan kapitan Hafiz Abdurrəhmanovun həyat yoldaşına kitab təqdim edilərkən Ülviyyə xanım "Saçımın birini ağ, birini qara hörərək bütün çətinliklərdən çıxacam. Hafizin iki yadigarını atalarının adına layiq övladlar kimi böyüdərək boya-başa çatdıracam. Bir an da olsun şəhid Hafizimin ruhunun incidilməsinə rəvac verməyəcəyəm. O, bizim üçün, ailəmiz üçün ölməyib", - sözlərini deyəndə salonda "Əhsən!" nidaları eşidilib.

Kapitan Hikmət Hacıyevin, gizir Emin Alməmmədovun, gizir Etibar Cəfərovun anaları Məhluqə Hacıyeva, Xədicə Alməmmədova və Elmira Cəfərova da "Şəhidimizlə fəxr edirik. Onlar el içində başımızı uca elədilər. Vətən sağ olsun!" deyə "Vətən müharibəsi şəhidləri" adlı kitabı qiymətli hədiyyə kimi qəbul ediblər.

Mehman Qəhrəmanov Birinci Qarabağ müharibəsi veteranıdır. O da hərbçi olub. Almaniyanın Maqdeburq şəhərində sovet ordusu sıralarında xidmət edərkən 1998-ci ilin oktyabr ayında oğlu Ruslan həmin şəhərdə dünyaya gəlib və ailə Azərbaycana qayıtdıqdan sonra ata Milli Orduda xidmətini davam etdirib, Ruslan isə illərin qanadında böyüyərək ata yolunu seçib. Cəmşid Naxçıvanski adına hərbi liseydə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Zabit ixtisas kursu"nu bitirib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Mahir rabitəçi kimi tanınan kapitan R.Qəhrəmanov Füzuli və Xocavənd rayonlarının bir çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə xidməti vəzifələrinin öhdəsindən peşəkarlıqla gəlib və doğulduğu ayda da şəhid olub. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və bir neçə döyüş medalı ilə təltif olunub. Şəhidin atası Mehman Qəhrəmanov oğlu ilə qürur duyduğunu, gəlini Elseverin vəfasından, sədaqətindən razı qaldığını və şəhid övladının qoxusunu onlardan aldığını deyib.

Kitab şəhidin qızı balaca Aygünə təqdim olunarkən o, atasına həsr olunmuş bir şeiri söyləyib və həmin şeir iştirakçılara duyğulu anlar yaşadıb.

Kapitan Arzu İsgəndərov bu ilin payızında 50 illiyini ümumxalq bayramı kimi qeyd edəcəyimiz Cəmşid Naxçıvanski adına hərbi liseyin yetirməsidir və o, bu məktəbin məzunu olmaqdan həmişə böyük qürur duyub. Şəhidin atası Seymur İsgəndərova kitab təqdim edilərkən bildirib ki, əgər əmr olarsa, mən də oğlumun əvəzindən silaha sarılıb Vətən uğrunda savaşmağa hazıram.

Gizir İlkin Ələsgərlinin atası Bəkir Ələsgərli və gizir Üzeyir Rüstəmovun qardaşı Rauf Rüstəmov da şəhid oğul və qardaşları haqqında xatirələrini bölüşüb və adlarına qəhrəmanlıq dastanları yazılan doğmaları ilə fəxr etdiklərini diqqətə çatdırıblar.

Polkovnik Rasim Manafov Azərbaycan Ordusunun bu gün də Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətlərində düşmənin təxribatlarının, eləcə də döyüş mövqelərimizə hücum cəhdlərinin qarşısını mərdliklə aldığını və şəhidlərimizin qanları bahasına azad etdiyimiz tarixi torpaqlarımızın etibarla qorunduğunu qeyd edərək "Bayrağımız etibarlı əllərdə, dəmir yumruğumuz isə yerindədir!" deyib.

Şəmkir rayon İcra Hakimiyyəti Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş şöbəsinin müdiri, Vətən müharibəsi iştirakçısı ehtiyatda olan baş leytenant Sərdar Namazov bundan sonra da Müdafiə Nazirliyi ilə əlaqəli şəraitdə fəaliyyətlərini davam etdirəcəklərini vurğulayıb.

Şəhid ailələrinə təqdim edilən "Vətən müharibəsi şəhidləri" adlı xatirə kitabı ilə yanaşı, şair-publisist A.Qurbaninin şeirlərinə görkəmli və tanınmış bəstəkarlardan Xalq artistləri Eldar Mansurov, Faiq Sucəddinov, Əməkdar artist Gövhər Həsənzadə və Azad Zahidin yazdıqları Zəfər nəğmələri Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Cahangir Qurbanov və Mətləb Ağayev tərəfindən məharətlə ifa olunub.

Sonda ulu öndər Heydər Əliyevin abidəsi qarşısında xatirə şəkli çəkdirilib.

# “Azərbaycan yanındadır, Türkiyəm!”

*Şeirlə ifadə edilən fikir duyğuların, düşüncələrin sığalına dönür. Oxuyursan, sənə elə gəlir ki, ilahiliyin möcüzəsiylə anların üstündə meh əsir. Onda şeiri könül mülkünün, könül mülkünü şeirin ziyarətçisi bilirsən. "Azərbaycan yanındadır, Türkiyəm!" şeiri belə şeirlərdəndi...*

Zaman-zaman türkün zoruna-gücünə bələd olanlar onunla açıq döyüşdən çəkinib. Qılıncdan çox siyasətə, siyasətdən çox təxribatlara güvənib. İndi də belədi. Dağda-daşda sürünə-sürünə məqam güdənlər də, onlara dəstək olanlar da unutmasınlar ki, zamanında qətiyyəti, döyüşkənliyi tarixin bel kəməri olan türk bir ülgüclük yaranı da qılıncıyla ödədir. Tarix buna istər qisas desin, istər cəza, dünya türkü tanıyalı belə olub...

Ötən əsrin əvvəllərində Əhməd Cavad "Yol ver türkün bayrağına!" deyirdi. Bu gün Abdulla Qurbani “Azərbaycan yanındadır, Türkiyəm!”, - deyir. Hər iki şeirdə türkə, Türkiyəyə sevgi var; hər iki şeir Azərbaycanın da, Türkiyənin də tarixinə qondarılan tarixi xəyanətlərə bəşəri qınaq, uğurlarına SÖZ işığıdı. Bu və ya digər hadisəyə SÖZlə bildirilən münasibət təkcə duyğular üçün deyil, həm də düşüncələr üçündü. Publisist Abdulla Qurbaninin məqalələri, kitabları, ssenarist Abdulla Qurbaninin rejissorluğuyla gerçəkləşən kütləvi vətənpərvərlik tədbirləri, şair Abdulla Qurbaninin şeirlərinin əksəriyyəti duyğular üçün düşüncə, düşüncələr üçün duyğudu. Bunlar həmişə böyük coşqu yaradıb. Xatırlayıram: "TurAz qartalı" beynəlxalq tədbirinə həsr etdiyi şeir türk pilotlarını çox duyğulandırmışdı. Növbəti tədbirdə Türkiyə-Azərbaycan birliyinin ruh alqışçısını görüncə qoşa qolları açılmışdı...

Türkiyədə meşə yanğınları törədildi. Məntiqi baxımdan bu miqyaslı cinayətə onu dövlət səviyyəsində pisləməyən, bu hadisəni istər açıq, istərsə də gizlin dəstəkləyən dövlətlər də şərikdi. Yaxşıya yaxşı, pisə pis deməyən dillərə bəz düşsə yaxşıdı, haqqın tərəzisinə pərsəng olanlara daş atmayan əllər üyüşsə yaxşıdı.

Abdulla Qurbaninin "Azərbaycan yanındadır, Türkiyəm!" şeiri mahiyyət baxımından ittihamdı - terrorun ittihamıdı, "Mənə dəyməyən qurdu yüz il yaşasın" fəlsəfəsiylə yaşayanların (fərdlərin də, dövlətlərin də) ittihamıdı. Çağırışdı - bəşəriliyə çağırışdı, bəşəriyyət iməklədiyi vaxtlardan üzü bu yana qeyrətin, qətiyyətin, haqqın, ədalətin, dostluğa sədaqətin, yerin-göyün ruhunun qibləsi olan müqəddəsliyə məhəbbətin çağırışıdı, Dürüst sözdü, doğru sözdü - "Haqq nazilər, üzülməz!" deyiminə söykək olan şair sözüdü...

Dünya görmürmü ki, bu miqyasda təxribatlar təkcə Türkiyəyə yönəldilməyib, həm də bəşəriyyəti ekoloji zəlzələylə, sunamiylə üz-üzə qoymaq cəhdidir. Bu yanğınlar təkcə Türkiyəni deyil, Azərbaycanı da bütövlükdə ayağa qaldırdı. Yanğınların söndürülməsində, onun fəsadlarının qarşısının alınmasında Azərbaycan da iştirak edir. "Od düşdüyü yeri yandırar", deyiblər. Neçə gündü ürəyimizi sızladan, könlümüzü dağlayan, ruhumuzun giziltisinə sığınıb ağlayan düşüncələrimiz Türkiyəyə bağlıdı. Türkiyədə meşələr yanır, Azərbaycan bu yanğınları öz canında da hiss edir. Yanğın söndürənlərimiz Türkiyədədi, hamımızın ürəyi oradadı. Abdulla Qurbaninin "Azərbaycan yanındadır, Türkiyəm!" şeiri də yanğınla mübarizə aparanların sırasındadı. Bu şeir deyir ki, möhkəm dur, Türkiyəm, qəddini əymə!..



Bu poetik dəyərli şeirə Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Mərkəzi düşündürücü klip biçimi verib. Şeir şairin özünün ifasında təqdim edildiyindən emosionallığı da, məntiqi vurğusu da ürəklərə (və düşüncələrə!) incəliklə hopur; bu klipi ruhun istədiyi niyyətlə könlü Türkiyəylə bağlılar ruhun pıçıltısı kimi izləyir, dinləyir. Şair deyir ki, (deməli, Azərbaycan şeiri deyir ki, deməli, Azərbaycan deyir ki) "Bu yanğın bizləri yandıra bilməz". Bu misra qətiyyəti ifadə edir, inamı ifadə edir, ruhun bölünməzliyini ifadə edir.

Belə duyğusal, düşündürücü təqdimatı "N" hərbi hissəsində, Vətən müharibəsində iştirak etmiş əsgərlərlə nəfəs-nəfəsə izləyirik. Mənə elə gəlir ki, heç kim nəfəs dərmir, kadrlarda yanğın görüncə ona sarı əllər uzanır. Qardaş əlləri alovu boğmağa can atır; şeir duyğuları belə bürüyüb...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda deyir: "Qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları və onların törətdiyi fəsadlar barədə xəbər bizi son dərəcə kədərləndirir. Əminəm ki, Sizin rəhbərliyiniz altında hökumətinizin atdığı qətiyyətli addımlar sayəsində əzmli və mübariz Türkiyə xalqı bu fəlakətin öhdəsindən tezliklə gələcəkdir. Azərbaycan hökuməti və xalqı hər zaman olduğu kimi bu gün də Türkiyə ilə həmrəydir və onun yanındadır". Bu səmimi kəlamlar Abdulla Qurbaninin səmimiyyətlə yazdığı "Azərbaycan yanındadır, Türkiyəm!" şeirinin - ruhdan süzülüb gələn şəbnəmmisal şeirin epiqrafıdı. Yəni, şeiri oxuyan onun mahiyyətinin haradan qaynaqlandığını gümanlamır, yəqinləyir. Bu isə şeirin (əsərin!) dərkini asanlaşdırır.

Əsgərlərin qaşları çatılıb, yumruqları düyünlənib. Qəribə ovqat içindəyik. Bilmirik, bu dörd dəqiqə tezmi ötüşdü, zamanmı uzandı. Mənə elə gəlir ki, bu anlarda əsgərlərin hamısı ruhən Türkiyədədi. Bu anlarda şeirin hər misrasına Azərbaycanla Türkiyə arasında mənəvi körpü deyərdim; bu mənəvi körpü başlanğıcını "N" hərbi hissəsinin əsgərlərinin düşüncələrindən, duyğularından götürür, əsgərlərin düşüncələri, duyğuları "Azərbaycan yanındadır, Türkiyəm!" şeirinin misralarındandır:

*Taleyimiz birdi, qədərimiz bir,*
*Sevincimiz birdi, kədərimiz bir,*
*Uğurumuz birdi, zəfərimiz bir,*
*Möhkəm dur, Türkiyəm,*
*qəddini əymə!.*

Əsgər Kamran Alxaslının qəhərləndiyini sezmək çətin deyil. Bu qəhər həm o yanğınlara görədi (qeyd etdiyimiz kimi, od düşdüyü yeri yandırır), həm də ruhun bölünməzliyinin yaşarılığına görədi; bu şeir, bu təqdimat bu bölünməzliyin ifadəsidi axı.

- Bir-iki gün bundan əvvəl yanğınla bağlı sosial şəbəkələrdən birində bir kadr gördüm. Maralın buynuzları od tutub. Maral yanacağını duyub. Döyükür, baxışlarında sözlə ifadə edilməsi mümkün olmayan bir vahimə çırpınır. Qarşıda yanğın var, sağda-solda yanğın var, arxada yanğın var. Maralın çarəsizliyi dünyanı düşündürməlidi. "Sabah nə olacaq?" - bu sual dünyanın yaxasından yapışıb cavab istəyir, - deyirəm.

Əsgər Murad Əliyevin təklifi ilə "Azərbaycan yanındadır, Türkiyəm!" əsərini bir də izləyirik; baxıblar, mahiyyətini dərk ediblər, yenidən baxmaq istəyi sevgidi - Azərbaycana sevgi, Türkiyəyə sevgi, "Azərbaycan yanındadır, Türkiyəm!" şeirinə sevgi. Kadrda göy üzünü qarsılayan alov görünür, ürəyimizə od düşür elə bil. Anlar ötüşüncə kadrda alovu ram edən oğullar görünür. Abdulla Qurbaninin biganələrə görk olası misraları alovun üstünə su çiləyir. Bizə elə gəlir ki, alov dilim-dilim sönür...

Əsgər Cavanşir Cəlilzadə şeirdən bir misra deyir: *Sən ki, hər sınaqdan qalib çıxmısan...*

Arzuladığım bir görüntü yaranır: şeirin sonrakı misrasını başqa əsgər - Sarvan Şamxalov deyir: *Zülməti yarmısan, şəri yıxmısan...*

Bu inamın, bu inama əminliyin hikməti şeirin mahiyyətindədi: bədii fikir gözəl təqdim edildiyinə görə yaddaqalandı, eşidilincə yaddaşlara hopandı.

Əsgərlərin fəallığı mayor Fuad Həsənovu duyğulandırır. Zabitin baxışlarını bürüyən bu inam, bu ehtiram başlanğıcını hərbi xidmətin ilk günlərindən götürsə də, Vətən müharibəsində daha da dönməzləşib. Zabitlərin əmr və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirən əsgərlər Vətən müharibəsində döyüşçü kimi də əmrləri Vətənə sədaqətlə - məsuliyyətlə yerinə yetiriblər. Füzulidə də, Xocavənddə də, Zəngilanda da, Laçında da, Cəbrayılda da qətiyyətlə döyüşüblər.

Bu hərbi hissədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Hərbi hissənin rəhbərliyinin təşəbbüsü və icrası ilə Vətən müharibəsində şəhid olanların adlarını əbədiləşdirmək məqsədi ilə xiyaban yaradılıb. Bu xiyaban hərbi hissənin əsgər və zabitlərinin Zəfərdən sonrakı hərbi xidmətinin mahiyyətini Vətənin ərazi bütövlüyünün qorunması amalıyla daha möhkəm bağlayır; hər əsgər hər şəhidin ruhunu da sıralarında hiss edir. Belə bir ruhla xidmət edən əsgərlərin qardaş Türkiyəni sıxan yanğınlardan bu səviyyədə məlumatlı olmaları, bu yanğınların ağrı-acılarını ömürlərində hiss etmələri mənə bir həqiqəti yenidən yaşadır: Qardaş qardaşıyla güclüdür...

- Yandırılan meşələrdə ağaclar əkiləcək, ağaclar boy atacaq, böyüyəcək, meşələr yenə könül açacaq. Bunu arzulamaq da, o ağacların əkilməsində iştirak etmək də bizim mənəvi borcumuzdur. Tərxis edildikdən sonra Türkiyəmizdə ağacəkmə aksiyasında iştirak etmək, sonra Azərbaycanımızda işğaldan azad edilmiş ərazilərimizdə tikintilərdə iştirak etmək. İndi bizim niyyətimiz belədir, - əsgər Murad Əliyev belə deyir və yoldaşlarına baxır. Yəni, nə deyirsiniz. Hamısının baxışlarında ecazkar bir razılıq görünür. Bu biçim baxışları Murovdağda 2020-ci ilin sentyabrın ortalarında da görmüşdüm, oktyabrın başlanğıcında da; Vətən müharibəsindən əvvəl gördüyüm döyüş əzmi Vətən müharibəsində dönməz qələbə ruhu idi. Bu baxışlar o əzmin, o ruhun davamıdı...

Yanğının baiskarlarına xitabən, "Mərə yağı, dədə-babadan ölüm ayağında olanlar bir qədər dirçəlir. Sizin bu fəallaşmağınız da elədi", - deyirəm. Əsgərlərin baxışları ekrandan üzülmür.

- Asudə vaxtlarda təşkil edilən söhbətlər, şairlərlə görüşlər, şeir saatları kimi tədbirlər əsgərlərimizin həm dünyagörüşünü genişləndirir, şeirə marağını artırır, həm də müəyyən qədər mənəvi-psixoloji hazırlığın səviyyəsinin yüksəldilməsində vasitə olur. Əsgərlərimizlə birlikdə izlədiyimiz "Azərbaycan yanındadır, Türkiyəm!" süjeti də bu qəbildəndir. Şairin özünün ifasında eşidilən misralar əsgərlərimizə nə gözəl duyğular yaşadır! Bu, həm şeirin qadirliyidi, həm də Muradın dedikləri yaşadan ruhun, - mayor Faiq Mehdiyev belə deyir. - Şeir Türkiyəyə həsr olunub deyə bu qədər duyğusallıqla dinlənildi. Vətən müharibəsi tarixləşsə də, qazanılan Zəfəri əsgərlərimiz də unutmur, unutmayacaq.

Türk sözünün yozumlarından biri də güclü, qüvvətlidi; güclü türk, qüvvətli türk dünyanı həmişə gücüylə də heyrətləndirib, qüdrətiylə də. İndi də heyrətləndirəcək. Bu heyrət qəlbitəmizlərin qürurunu siləyəcək, qəlbipaxırlara can sitəmi, ruh sarsıntısı olacaq...

Əsgər Murad Əliyev şeirdən yaddaşında qalan misraları o qədər doğmalıqla deyir ki!

*Eşitsin düşmənlər, bilsin yağılar,*
*Bu yanğın bizləri sındıra bilməz!*

Hamısı şeirin ifadə etdiyi mətləblərin cazibəsindədi. Muradın nəfəs dərdiyini güman edən əsgər Ülvi Məmmədov şeirin davamını deyir:

*Danışan dilimi susdura bilməz,*
*Türkün ocağını söndürə bilməz!*

Kəlmələr haraya dönür, şüarlaşır, qadirləşir...

"Azərbaycan yanındadır, Türkiyəm!"in davamı əsgər baxışlarıdı, əsgər baxışlarının davamı şeirin son misrası: *Bu yanğın bizləri yandıra bilməz!..*

"Azərbaycan yanındadır, Türkiyəm!" şeirinin təqdimatının finalında şair Abdulla Qurbani də, klip-təqdimata cəlb edilmiş əsgərlər də, "N" hərbi hissəsinin əsgərləri də bir vurğu ilə "Möhkəm dur, Türkiyəm, qəddini əymə!" deyir. Yerlər də inansın ki, göylər də inansın ki, bu haray, bu çağırış dörd divar arasında qalmayacaq!

**Rəşid HÜSEYNOV**
**əməkdar jurnalist**

# Böyük Xalqın Şanlı Zəfərində ölkəsini sevən hər kəsin payı var

***Qələbəmizdə payı olan hər kəs qürur duydu, fəxr etdi. Şanlı Zəfərimizdə payı olanlardan biri də böyük arzularla böyüyən balaca Toğruldur.***



Fikrimcə tarix sübut edir ki, xalqın böyüklüyü təkcə onun əhalisinin çoxluğu, ərazisinin böyüklüyü ilə deyil, eyni zamanda, bəşəriyyətə bəxş etdiyi böyük insanlarla da ölçülür. Xalqımızın tarixinə nəzər salsaq görərik ki, bununla bağlı nümunələr yetərincədir.

Düşünürəm ki, xalqın böyüklüyü həm də bu xalqın yaşca, boyca balaca olmasına baxmayaraq böyük ürəyə sahib olan mərd övladları ilə də ölçülür. Böyük ürəkli insanlar mərd olurlar və onlar daima xalqın, dövlətin maraqlarını şəxsi maraqlarından üstün tutur, öz uğurlarından Vətənin uğurları naminə vaz keçməyi bacarır, arzularını ölkəsinin istiqbalına qurban verməyə qadir olurlar. Yəni, əsl Vətəndaş olmağı bacarırlar.

Ali Baş Komandana, şəhidlərimizə, qazilərə və bu Qələbədə əməyi olan bütün insanlara dərin minnətdarlıq hissi ilə anılacaq bu tarix də, bu Zəfər günü də belə Vətən övladlarının Azərbaycanda daim olacağına əyani sübutdur.

Xüsusi qeyd etmək istərdim ki, Vətən müharibəsinin qələbə ilə sona çatması da böyük ürəkli mərd insanların, xalqa, Vətənə bağlı əsl AZƏRBAYCAN övladlarının yetərincə mövcud olmasının nəticəsidir. Xalqımızın 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyi həmrəylik, əzm, iradə və Ali Baş Komandanın ətrafında sıx birləşməsi, ölkə Prezidentinin qətiyyətli mövqeyi "Dəmir yumruq" əməliyyatının uğurla nəticələnməsi, Ermənistan silahlı qüvvələrinin darmadağın edilərək ərazilərimizdən çıxarılması, ulu yurd yerimiz füsunkar Qarabağımızın işğaldan azad edilməsi Şanlı Zəfərimizin əldə olunmasında həlledici rol oynayan əsas amillərdəndir.

Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması naminə misli görünməmiş həmrəylik, rəşadət və fədakarlıq nümayiş etdirən insanlarımız ölkə Prezidenti, Ali Baş Komandanın xalqa müraciətindən sonra bir nəfər kimi ayağa qalxdı və dövlətimizin, ordumuzun arxasında əzəmətlə durdu. Döyüş əməliyyatları gedən dövrdə istər ön cəbhədə, istərsə də arxa cəbhədə ictimaiyyət, eləcə də dünyanın harasında yaşamasından asılı olmayaraq soydaşlarımız dövlətimizə, ordumuza ümumxalq sevgisi nümayiş etdirdi. Xalqımızın dövlətinə, ordusuna inamı, eləcə də həyata keçirilən ümumazərbaycan dəstəyi, ümumxalq yardımı hər kəsdə qürur hissi, coşqu doğurdu, qələbəmizə əminliyi "Dəmir yumruğa" çevirdi. Vətən müharibəsinin ilk günlərindən hər kəs əlindən gələni etdi, imkanı daxilində hərbçilərimizə köməyə, yardıma tələsdi. Əsgərimizə maşınlarla sovqatlar yollayan şirkətlər, pulsuz siqaret, su verən dükan sahibləri, öz qazancına şəxsi avtomobili ilə cəbhəyə pay çatdıran cavan oğlan, şəhidin böyüdülmüş portretini dəfninə pulsuz aparmaqla savab qazanmaq istəyən taksi sürücüsü, döyüşləri, qəhrəmanlıqları, qələbələrimizi işıqlandıran media mənsubları, əsgərə öz inamını, etibarını sevgi ilə dolu məktublar yazmaqla bildirən məktəblilər də bu Şanlı Qələbəmizdə az da olsun payı, əməyi olsun deyə fəxrlə addımlar atdılar və bundan fərəhləndilər, qürurlandılar.

44 günlük Vətən müharibəsi günlərində əsgərlərimizin qələbələrindən sevinərək ordumuza yardım edənlərin sırasında bu il iyulun 22-də 10 yaşını qeyd edən məktəbli Toğrul Rəşad oğlu Əzizli də vardır.

Həmin gün həmişə olduğu kimi, sübh tezdən xidmətə yollanmaq üçün oyananlardan biri də mən idim. Bu səhər yerimdən qalxanda içimdə bir ayrı hiss, ayrı həvəs, ayrı bir enerji hiss etdim. Bir anlıq bunun səbəbini düşündüm və daxilimdəki bu fərqli durumun səbəbini həmən xatırladım. Bu coşqunun səbəbi 29 il sonra yenidən mənim Ağdama getməyimə səbəbkar olan, böyük arzularla böyüyən böyük ürəkli balaca Toğrul Əzizli idi. Bəli, məhz 29 il əvvəl 1992-ci ilin yayında mən həyatımda ilk dəfə Ağdam rayonunda olmuşdum. Yenidən Ağdama getmək üçün bizlərə bu imkanı yaradan Ali Baş Komandanımıza, dövlətimizə və ordumuza minnətdarlıq hissi ilə günə başladım.

Ordumuzun qələbələrindən, cəsur əsgərlərimizin, fədakar zabitlərimizin qələbələrindən ruhlanan və ata-baba yurdu Ağdama gedə biləcəyi xəbərindən sevinən məktəbli Toğrul balaca yaşı, kiçik qəlbi ilə böyük bir addım atmaq qərarına gəlir. Bu barədə valideynləri ilə danışanda, təbii olaraq ona sual olunur ki, axı sən hələ balacasan, sən nə ilə ordumuza kömək edə bilərsən? Balaca Toğrulun cavabı Əzizovlar ailəsinin böyük qüruruna, Ağdam sakini olan babasının və nənəsinin isə sevinc dolu göz yaşlarına səbəb olub. Valideynləri ilə məsləhətləşəndən sonra atasının köməyi ilə ad günü üçün hədiyyə almaq məqsədilə bir il yarım ərzində topladığı 660 manat məbləğində pul vəsaitini (26 oktyabr 2020-ci il tarixədək) ianə olaraq Azərbaycan Ordusuna yardım fondunun hesabına köçürür. Eyni zamanda, əsgərlərə ünvanladığı məktubda onlara uğurlar, qələbələr diləyib, onlarla fəxr etdiyini dilə gətirib. Məktubunda balaca Toğrul yazıb ki, onun həyatda 3 böyük arzusundan biri də məhz müharibənin qələbəmizlə bitməsi və ata yurdu Ağdamın azad edilməsidir. Müdafiə Nazirliyindən xahiş edib ki, qələbədən sonra ona işğaldan azad olunmuş Ağdama gedərək babasının evini ziyarət etməyə köməklik edilsin.

Ordumuza yardımlarla bağlı məlumatlar və daxil olan elektron müraciətlər təhlil edilərkən bu qürurverici fakt və balaca Toğrulun yazdığı məktub Müdafiə Nazirliyinin rəhbərliyinə məruzə edilib. Böyük ürəkli, böyük arzularla böyüyən balaca Toğrulun əsl vətəndaş, əsl azərbaycanlı olaraq atdığı addım hərbi qulluqçular tərəfindən fəxrlə, qürur hissi ilə qarşılandı. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, 10 yaşlı Toğrulun ad günü münasibətilə qiymətli hədiyyə alınması və valideynləri ilə birlikdə ata-baba yurdu olan Ağdama səfərin təşkil edilməsi məqsədilə işlər başladı. Lakin onu gözləyən sürprizdən - ad günü hədiyyəsindən nə Toğrulun, nə də valideynlərinin xəbəri yox idi. Bu məlumat hərbçilər tərəfindən "bir sirr, məxfi məlumat olaraq ciddi şəkildə qorunurdu".

Müdafiə nazirinin tapşırığı ilə hədiyyə alındıqdan və səfərlə bağlı hazırlıqlar tamamlandıqdan sonra Toğrulun ailəsi ilə əlaqə saxlanıldı. Yaxın günlərdə onun Ağdama getməsinə şərait yaradılacağı xəbəri Əzizovlar ailəsi tərəfindən böyük sevinc hissi ilə qarşılandı. Xüsusən də Toğrulun babası və nənəsi daha çox sevindilər. Toğrulu yola salanda, hələlik, özlərinin Ağdama getmələrinə imkan olmadığından nəvələrindən rayondan onlar üçün bir neçə ovuc torpaq gətirməsini də xahiş etdilər.

Balaca Toğrulun bu vətənpərvər addımını işıqlandırmaq üçün müraciət edilən Xəzər televiziyasının rəhbərliyi də məmnuniyyətlə bir nəfər jurnalist və operator təyin edilməsinə göstəriş verdi. Jurnalist Ülkər Qasımqızı və operator Ağa Sultanov Toğrulun bu addımını lentə alacaq, tarixləşdirəcəkdi.

Səhər tezdən Toğrul Əzizlini və atası Rəşad Əzizovu Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş idarəsinin həyətində qarşılayarkən hər ikisinin sevinci, həyəcanı üzlərindən hiss olunurdu. Bu səfərdə balaca qəhrəmanımıza yol yoldaşlığı edəcək hər kəs toplandıqdan sonra, Müdafiə Nazirliyi tərəfindən ayrılan avtobus Ağdama yola düşür. Deyirlər yol yoldaşlığı insanı tanımaq üçün ən gözəl vasitədir. Bizim də yol boyu balaca qəhrəmanımızı və onu böyüdən ailəni yaxından tanımaq imkanımız oldu. Ağdama çatanadək söhbətlərimizin qayəsi Vətən müharibəsi, döyüşlərdə qəhrəmanlıq göstərən igidlərimiz, Ali Baş Komandanın qətiyyəti və ordumuzun qüdrəti sayəsində əldə etdiyimiz qələbə, azad edilmiş torpaqlarımız oldu. Toğrulun atası Rəşad Əzizovu dinlədikcə, fikirlərini eşitdikcə bir daha əmin olduq ki, məhz belə ailələrdə Toğrul kimi vətənpərvər, vətənsevər, yurda bağlı, böyük ürəkli Vətən övladları yetişir.

Bizləri aparan avtobusla artıq Ağdama daxil oluruq. Dağılmış evləri, viran qoyulmuş yaşayış məntəqələrimizi şakitcə seyr edən Toğrul fikirlidir. Jurnalist Ülkər xanım Toğrulu fikirdən ayıraraq nə düşündüyünü soruşur. O isə cavabında fikirləşirəm ki, bu dağılmış evlərin hansı babamgilin evidir. Bütün evlərin dağıdılmasına, tanınmaz hala salınmasına baxmayaraq Ağdamın azad edilməsinə hədsiz dərəcədə sevindiyini də deyir böyük ürəkli balaca Toğrul. "Atam söhbətində bildirdi ki, Ağdam bərpa ediləcək, əvvəlkindən də gözəl yaraşıqlı şəhər olacaq və biz yenə də ailəmizlə babamı, nənəmi öz evlərində görməyə gələcəyik". Həqiqətən də, Prezident İlham Əliyevin təməlqoyma mərasimində iştirakından sonra Ağdamda başlanan quruculuq işləri tam əminliklə deməyə əsas verir ki, Toğrulun bu arzusunun da çin olacağına şahidlik edəcəyik. Ağdamın kəndlərini, dağıdılmış yaşayış məntəqələrini ürək ağrısı ilə, işğalçıya nifrət hissi ilə seyr edərək keçirik. Nəhayət, viran qoyulmuş şəhərdə yeganə dağıdılmamış bina olan Ağdamın Cümə Məscidinin qarşısında avtobusdan düşürük. Vətənimizin azadlığı və ərazi bütövlüyü naminə canlarından keçənlərin və ulu xalqımızın böyük övladlarının ruhuna dualar etdikdən sonra məscidin minarəsinə qalxırıq. Qarşımızda bizlərə ikili hisslər yaşadan bir mənzərə açılır. Minarədən baxdıqda gördüyümüz mənzərə ürək ağrıtsa da, dörd bir yanda ordumuzun işğaldan azad etdiyi ucsuz-bucaqsız Vətən torpaqlarını gördükcə təsəlli tapır, fərəh hissi keçirir və bu ərazilərdə yenidən həyatın qaynaması, rayon, şəhər və kəndlərimizin çiçəklənməsi, inkişaf etməsi, dirçəlməsi əminliyi ilə Toğrulla birlikdə Ağdamı seyr edirik. Toğrulun bu səfərini foto və videokameranın yaddaşına köçürə-köçürə Xəzər Televiziyasının əməkdaşı Ülkər xanım Toğrulla söhbət edir, onu sorğu-suala tutur, xəyallarını, arzularını öyrənməyə çalışır. Heyranlıq hissini gizlətməyən Toğrul və atası babalarına məxsus, dağıdılmış evin yerini təyin etməyə çalışırlar. Evin yerini təxmini təyin etdikdən sonra ata-oğul nəzərlərini uzun-uzadı həmin istiqamətə zilləyirlər. Toğrul sanki babasının və nənəsinin söhbətlərində eşitdiyi Ağdamı təsəvvür etməyə çalışır. Ülkər xanımla söhbətində də Toğrul deyir ki, babam mənə Ağdam haqqında çox gözəl şeylər danışıb, təəssüf ki, hər yer dağıdılıb.

Minarədən yerə enirik. Böyük arzularla yaşayan, böyüyən Toğrulun 3 arzusu var idi. O, Vətən müharibəsi zamanı əsgərlərə yazdığı məktubunda bu arzularından bəhs etmişdi. Ağdamın işğaldan azad olunması, pandemiyanın bitməsi və pul yığaraq ad gününə özünə oyun qurğusu almaq idi onun arzuları. Məsciddə dua edərkən ən böyük arzusunun yerinə yetdiyinə, Ağdamın azad olunduğuna görə Allaha və əsgərlərimizə minnətdar olduğunu deyən Toğrul onu gözləyən hədiyyədən, yəni, ikinci arzusunun da yerinə yetəcəyindən xəbərsiz idi. Artıq gözlənilən an gəlib çatdı və Nazirliyin əməkdaşı polkovnik-leytenant Anar Eyvazov Müdafiə Nazirliyi adından alınan oyun qurğusunu ad günü hədiyyəsi olaraq balaca qəhrəmanımıza, böyük ürəkli Toğrula təqdim edir. Bu gözlənilməz hadisədən qəhərlənən, göz yaşlarını saxlaya bilməyən Toğrul gözləmədiyi anda bu hədiyyəni almasına sevindiyini deyir çətinliklə. Bizlər də hamılıqla balaca Toğrulu təbrik edir və bildiririk ki, nə qədər belə böyük ürəyə və belə böyük arzulara sahib Vətən övladları var, Azərbaycan daim qalib, qüdrətli, çiçəklənən və övladlarımızın arzularının yerinə yetiriləcəyi bir ölkə olacaqdır.

Səfər başa çatır. Babasının xahişi ilə Toğrul bir neçə ovuc torpaq da götürdükdən sonra Ağdamla sağollaşır. Yenidən görüşmək ümidilə Bakıya yola düşürük. Səfərdən məmnun qalan balaca Toğrul və atası yaradılan bu imkan, diqqət və qayğıya görə dərin minnətdarlıqlarını ifadə edirlər.

Toğrul yenə də pəncərədən dağılmış evləri, viran qoyulan yurd yerlərini seyr edə-edə fikrə dalıb. Düşünürəm ki, bu dəfə onun arzusu bütün rayonlarımızla birlikdə, Ağdamın da bərpa olunmasından sonra yenə də baba yurdunda olmaqdır. Bu tək onun yox, Azərbaycanı qəlbən sevən, qələbəsi ilə fəxr edən, yurd yerlərinin azad olunmasına və həmin yerlərə qayıdacağına sevinən hər kəsin arzusudur! Arzularımız çin olsun. Böyük arzularla yaşayan, böyük ürəkli, mərd insanları daima var olan böyük Azərbaycan xalqı!

Böyük Xalqımın Şanlı Zəfərinin səbəblərindən biri olan böyük ürəkli mərd övladların Azərbaycanda daim var olması arzusu ilə...

**İsa İSMAYILOV**
**Hərbi jurnalist,**
**Müdafiə Nazirliyi Mətbuat Xidmətinin əməkdaşı,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**Bakı-Ağdam-Bakı**

**Baş redaktor vəzifəsini icra edən**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 475
Nüsxə 4009